İnsan dostunun dini üzərindədir və sizdən hər biriniz kiminlə dostluq etdiyinə baxsın

Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "İnsan dostunun dini üzərindədir və sizdən hər biriniz kiminlə dostluq etdiyinə baxsın".

[Həsən] [Əbu Davud, Ət-Tirmizi,Əhməd]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) insanın həyat tərzi və vərdişlərində dostu və ən yaxın yoldaşına bənzədiyini, dostluğun insanın əxlaqına, davranışına və hərəkətlərinə təsir etdiyini bəyan etmiş və bu səbəbdən yaxşı dost seçiminə yönəltmişdir. Çünki o, dostunu imana, hidayətə və xeyirxahlığa yönəldir və yoldaşına yardımçı olur.

http://www.sunnah.global/hadeeth/az/show/3122